# Haqqay

*Peyğəmbərin Kitabı*

***Giriş***

*«Haqqay»* Kitabı miladdan əvvəl 520-ci ildə Haqqay peyğəmbər vasitəsilə Rəbdən gələn qısa vəhylərdir. Bu kitab *«Ezra»*, *«Nehemya»* və *«Zəkəriyyə»* Kitabları ilə sıx əlaqəlidir. Kitabdakı hadisələrin tarixi dəqiq mə'lumdur. Sürgündən qayıdan İsrail xalqı bir neçə il idi ki, Yerusəlimdə yaşayırdı. Lakin mə'bəd hələ də xarabalıq vəziyyətində qalırdı. Bu vəhy vasitəsilə Rəbb xalqını mə'bədi bərpa etməyə çağırırdı.

Rəbb paklanmış, yeniləşmiş xalqa firavanlıq və sülh olan bir gələcək və'd verir.

***Kitabın məzmunu:***

Mə'bədin bərpası barəsində vəhy 1:1-15

Təsəlli və ümid xəbəri 2:1-23

## *Rəbb Yerusəlimdəki mə'bədinin bərpası haqqında əmr verir*

1 [1] Padşah Daranın hakimiyyətinin ikinci
ili, altıncı ayın birində[1] Yəhuda valisi
Şealtiel oğlu Zerubbabilə və baş kahin
Yehosadaq oğlu Yeşuaya peyğəmbər Haqqay
vasitəsilə Rəbbin bu sözü nazil oldu:
[2] «Ordular Rəbbi belə deyir: "Bu xalq deyir ki,
hələ Rəbbin mə'bədini qurmaq vaxtı
çatmayıb"».
[3] Rəbbin bu sözü peyğəmbər Haqqay
vasitəsilə nazil oldu: [4] «Bu mə'bəd xaraba
qaldığı halda sizin üçün damı yaraşıqlı
evlərinizdə oturmaq vaxtıdırmı?» [5] İndi isə
Ordular Rəbbi belə deyir: «Həyat yollarınız
haqqında yaxşı düşünün. [6] Çox əkdiniz, amma
az götürdünüz. Yeyirsiniz, amma
doymursunuz. İçirsiniz, amma susuzluğunuz
yatmır. Geyinirsiniz, amma geyiminiz sizi
isitmir. Məvacibiniz cırıq kisəyə qoyulur».
[7] Ordular Rəbbi belə deyir: «Həyat
yollarınız haqqında yaxşı düşünün. [8] İndi
dağlara çıxıb ağac gətirin və mə'bədi qurun.
Onda razı qalaram, izzətlənərəm». Bunu
deyən Rəbdir. [9] Ordular Rəbbi belə bəyan edir:
«Çox şey gözlədiniz, budur, az oldu. Az olanı
da evə gətirəndə onları sovurdum. Nə üçün?
Xaraba qalan mə'bədimə görə. Amma siz öz
evləriniz üçün əlləşirsiniz. [10] Sizdən ötrü buna
görə göylər şehini, yer də məhsulunu kəsdi.
[11] Yerə, dağlara, taxıla, təzə şəraba, zeytun
yağına, torpağın yetirdiyi ne'mətlərə, eləcə də
insana, heyvana və əllərinizin bütün
zəhmətinə Mən quraqlıq e'lan etdim».
[12] Şealtiel oğlu Zerubbabil ilə baş kahin
Yehosadaq oğlu Yeşua və xalqın sağ qalanları
özlərinin Allahı Rəbbin dediklərinə –
peyğəmbər Haqqayın sözünə baxdılar. Çünki
onu onların Allahı Rəbb göndərmişdi. Xalq
Rəbdən qorxdu. [13] Rəbbin rəsulu Haqqay
Rəbbin elçiliyi ilə xalqa belə dedi: «Rəbb
deyir: "Mən sizinləyəm"». [14] Rəbb Yəhuda
valisi Şealtiel oğlu Zerubbabili, baş kahin
Yehosadaq oğlu Yeşuanı və xalqın sağ
qalanlarını ruhlandırdı. Xalq yığılıb özlərinin
Allahı olan Ordular Rəbbinin mə'bədində
işləməyə başladı. [15] Bu hadisə padşah Daranın
hakimiyyətinin ikinci ili, altıncı ayın iyirmi
dördündə baş verdi.

## *Mə'bədin bərpasının tərənnümü*

2 [1] Yeddinci ayın iyirmi birində
peyğəmbər Haqqay vasitəsilə Rəbbin bu
sözü nazil oldu: [2] «İndi Yəhuda valisi Şealtiel
oğlu Zerubbabilə, baş kahin Yehosadaq oğlu
Yeşuaya və xalqın sağ qalanlarına belə söylə:
[3] "Sizin aranızda kim burada olan mə'bədin
əvvəlki əzəmətini görmüşdür? İndi buranı
necə görürsünüz? Gözünüz önündə sanki bir
heçə çevrilməyibmi?" [4] Rəbb deyir: "İndi isə,
ey Zerubbabil, qüvvətlən! Qüvvətlən, ey baş
kahin olan Yehosadaq oğlu Yeşua! Ey bütün
ölkə xalqı, qüvvətlənin və işləyin! Çünki Mən
sizinləyəm". Ordular Rəbbi belə bəyan edir:
[5] "Misirdən çıxan zaman sizinlə bağladığım
əhdə əsasən Ruhum aranızdadır. Qorxmayın!"
[6] Budur, Ordular Rəbbi belə deyir:
"Tezliklə Mən göyləri, yeri, dənizi, torpağı bir
də lərzəyə gətirəcəyəm! [7] Bütün millətləri
lərzəyə salıb hamısının cah-cəlalını buraya
gətirdəcəyəm və bu mə'bədi əzəmətlə
dolduracağam". Ordular Rəbbi belə deyir.
[8] "Bütün qızıl-gümüş Mənimdir" Ordular
Rəbbi belə bəyan edir. [9] Ordular Rəbbi belə
deyir: "İndiki mə'bədin əzəməti əvvəlkindən

***1:1*** *– Ezr. 5:1; 6:14*

[1] **1:1** Miladdan əvvəl 29 avqust 520-ci il.

***2:3*** *– Ezr. 3:12*

***2:5*** *– Çıx. 29:45-46*

***2:6*** *– Haq. 2:21; İbr. 12:26*

üstün olacaq. Bu yerə əmin-amanlıq
verəcəyəm”. Ordular Rəbbi belə bəyan edir».

### *Məzəmmət və və’d*

10 Daranın hakimiyyətinin ikinci ili,
doqquzuncu ayın iyirmi dördündə Rəbbin
sözü peyğəmbər Haqqaya nazil oldu.
11 Ordular Rəbbi belə deyir: «Qanun haqqında
kahinlərə bir müraciət edin: 12 “Kimsə
cübbəsinin ətəyində təqdis olunmuş ət
gəzdirən zaman ətəyi ilə çörəyə, şorbaya,
şəraba, zeytun yağına və yaxud hər hansı bir
ərzağa toxunarsa, onları təqdis edərmi?”»
Kahinlər bu suala «xeyr» deyə cavab verdi.
13 Haqqay dedi: «Bəs ölü cəsədə toxunub
murdarlanan bir adam həmin ərzaqlardan
birinə toxunarsa, o ərzağı murdarlayarmı?»
Kahinlər cavab verdi: «Murdarlayar».

14 Haqqay sonra belə dedi: «Rəbb belə
bəyan edir: “Bu xalq – bu millət Mənim
gözümdə belədir. Onların hər əməli belədir.
Mənə təqdim etdikləri hər şey murdardır.
15 İndi rica edirəm, bu gündən e’tibarən nə
olacağını dərindən düşünün. Rəbbin
mə’bədinin daşı daş üstünə qoyulmazdan
əvvəl işləriniz necə gedirdi? 16 O zaman hər
kim iyirmi kisə məhsul gözləyirdisə, on kisə
olurdu. Şərab çənindən kim əlli qab şərab
çəkmək istəyirdisə, iyirmi qablıq şərab
tapırdı”. 17 Rəbb belə bəyan edir: “Özünüzü və
əllərinizin bütün zəhmətini səmum küləyi, kif
və dolu ilə vurdum. Yenə mənə sarı
dönmədiniz. 18 Rica edirəm, dərindən düşünün.
Bu gün doqquzuncu ayın iyirmi dördündən –
Rəbbin mə’bədinin təməli qoyulan gündən
sonra nə baş verəcəyi barədə yaxşı düşünün.
19 Anbarda toxum qalıbmı? Məgər üzüm,
əncir, nar, zeytun ağacı bar gətirməyib? Bu
gündən e’tibarən sizə bərəkət verəcəyəm!”»

### *Rəbbin Zerubbabilə dediyi söz*

20 Rəbbin bu sözü Haqqaya ikinci dəfə ayın
iyirmi dördündə nazil oldu: 21 «Yəhuda valisi
Zerubbabilə belə de: “Mən göyləri və yeri
lərzəyə gətirəcəyəm. 22 Padşahlıqların taxt-
taclarını alt-üst edəcəyəm. Millətlərin
səltənətlərinin gücünü darmadağın edəcəyəm.
Döyüş arabaları ilə sürücülərini aşıracağam,
atlarla süvarilər yerə səriləcəklər. Hamı
qardaş qılıncı ilə qırılacaq”».

23 Ordular Rəbbi bəyan edir: «Ey qulum
Şealtiel oğlu Zerubbabil, o gün səni götürüb
möhürlü üzük edəcəyəm, çünki səni seçdim».
Rəbb bu sözləri dedi. Bu, Ordular Rəbbinin
bəyanıdır.

---

***2:13*** *– Say. 19:11-22*